«CAVİD-AUDİT» MMC

Azərbaycan Respublikasının Auditorlar Palatası
tərəfindən 19 dekabr 2018-ci il tarixdə verilmiş AT-043 saylı
İCAZƏ əsasında fəaliyyət göstərir

# «Kredit Servis BOKT» MMC

31 dekabr 2022-ci il
tarixində
bitən il üzrə

# AUDİTOR RƏYİ
# VƏ
# MALİYYƏ HESABATLARI

Bakı şəhəri, 23 may 2023-cü il

«Kredit Servis BOKT» Məhdud Məsuliyyətli Cəmiyyətinin
31 dekabr 2022-ci il tarixdə
bitən il üzrə maliyyə hesabatları və müstəqil auditor rəyi

**Mündəricat**


| № | Məzmunu | səhifə |
|---|---|---|
| 1 | Auditor rəyi | 1 |
| 2 | Maliyyə vəziyyəti haqqında hesabat | 2 |
| 3 | Mənfəət və ya zərər və məcmu gəlir haqqında hesabat | 3 |
| 4 | Kapitalda dəyişikliklər haqqında hesabat | 4 |
| 5 | Pul vəsaitlərinin hərəkəti haqqında hesabatı | 5-6 |
| 6 | Maliyyə hesabatlarına qeydlər | |
| | -qeyd 1 - Ümumi məlumat | 7 |
| | -qeyd 2 - Təqdimatın əsasları | 7-8 |
| | -qeyd 3 - Mühasibat uçotunun mühüm prinsipləri | 8-11 |
| | -qeyd 4 - Pul vəsaitləri və onların ekvivalentləri | 12 |
| | -qeyd 5 - Müştərilərə verilmiş kreditlər | 12-14 |
| | -qeyd 6 - Digər aktivlər və digər öhdəliklər | 15 |
| | -qeyd 7 - Torpaq, tikili və avadanlıqlar | 15-16 |
| | - qeyd 8 - Qeyri –maddi aktivlər | 16 |
| | -qeyd 9 – Nizamnamə kapitalı və kapital ehtiyatları | 16 |
| | -qeyd 10-Verilmiş kreditlər üzrə faiz gəlirləri, komissiya haqqı və digər maliyyə gəlirləri | 17 |
| | -qeyd 11 - Əməliyyat və maliyyə xərcləri | 17-18 |
| | - qeyd 12 - İşçi heyəti üzrə xərclər və sosial sığorta ayrmaları | 18 |
| | - qeyd 13 - Mənfəət | 18 |
| | - qeyd 14 - Vergilər | 19-20 |
| | -qeyd 15-Xarici valyutanın konvertasiyası və məzənnə fərqi | 20 |
| | -qeyd 16- Dividendlər | 20 |
| | - qeyd 17 – Risklərin idarə olunması | 20-21 |
| | -qeyd 18 - Əlaqəli tərəflərlə əməliyyatlar | 21 |
| | -qeyd 19- Maliyyə nəticələri | 21 |
| | -qeyd 18- Hesabat dövründən sonrakı hadisələr | 21 |

# AUDİTOR RƏYİ

# AUDITOR OPINION

«CAVİD-AUDİT» MMC Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən verilmiş AT-043 nömrəli 19 dekabr 2018-ci il tarixli İCAZƏ əsasında fəaliyyət göstərir

Seriya AT № 00190

## MÜSTƏQİL AUDİTORUN HESABATI

**"Kredit Servis BOKT" MMC-nin rəhbərliyinə**

### Müsbət rəy

Biz, "Kredit Servis BOKT" MMC-nin 31 dekabr 2022-ci il tarixinə olan Maliyyə vəziyyəti haqqında hesabatından, Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatından, Kapitalda dəyişikliklər haqqında və göstərilən tarixdə başa çatan il üzrə Pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərində düzgün və ədalətli təsəvvür yaradır.

### Rəy üçün əsaslar

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə "Etika Məcəlləsi"nin tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit subutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### Əsas audit məsələləri

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdəndir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

### Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

### Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisari qəraqrlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

"Cavid-Audit" MMC-nin direktoru – auditor Ş.M.Məmmədov

Auditor rəyi 23 may 2023-cü il tarixində tərtib edilmişdir.
Ünvan:Bakı şəhəri, AZ1029, Böyükşor şossesi, 2062-ci məhəllə

# «KREDİT SERVIS BOKT» MMC

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
31 dekabr 2022-ci il tarixinə

(min manatla )

| № | Maddələr | Qeydlərə istinad | Cari dövr 2022-ci il | Əvvəlki dövr 2021-ci il |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| 1 | Nağd pul vəsaitləri və hesabda qalıqlar | 4 | 456,4 | 236,4 |
| 1.1 | Nağd pul vəsaiti qalıqlar | 4 | 426,0 | 200,6 |
| 1.2 | Cari hesablarda qalıqlar | 4 | 30,4 | 35,8 |
| 1.3 | Banklarda yerləşdirilmiş müddətli depozitlət | | - | - |
| 2 | İnvestisiyalar | | - | - |
| 3 | Qiymətli kağızlar | | - | - |
| 4 | Kreditlər | 5 | 985,9 | 1285,8 |
| 5 | Kreditlər üzrə mümkün zərərlərin ödənilməsi üçün ehtiyat | 5 | 29,3 | 47,3 |
| 6 | Kreditlərin xalis dəyəri (sətir 4 – sətir 5) | 5 | 956,6 | 1238,5 |
| 7 | Hesablanmış alınacaq faizlər | 10 | 14,9 | 24,3 |
| 8 | Torpaq, tikili və avadanlıqlar (amortizasiya çıxılmaqla) | 7 | 12,6 | 13,5 |
| 9 | Qeyri –maddi aktivlər | 8 | 5,7 | 6,3 |
| 10 | Digər aktivlər | 6 | 1,9 | 11,1 |
| | **Aktivlərin cəmi** | | **1448,1** | **1530,1** |
| | **PASSİVLƏR** | | | |
| | **Öhdəliklər** | | | |
| 11 | Cəlb edilmiş vəsaitlər | 5 | 66,0 | 98,8 |
| 11.1 | Komissiya borc öhdəlikləri | | - | - |
| 11.2 | Girov əmanəti | | - | - |
| 12 | Subsidiyalar üzrə borc öhdəlikləri | | - | - |
| 13 | Ödəniləcək faizlər | | - | - |
| 14 | Qiymətli kağızlar | | - | - |
| 15 | Digər ohdəliklər | 6 | 31,0 | 61,1 |
| | **Öhdəliklərin cəmi** | | **97,0** | **159,9** |
| | **Kapiral** | | | |
| 16 | Nizamnamə kapitalı | 9 | 1282,9 | 1282,9 |
| 17 | Keçmiş illərin qrantları | | - | - |
| 18 | Cari illərin qrantları | | - | - |
| 19 | Keçmiş illərin bölüşdürülməmiş mənfəəti (zərəri) | 9 | 17,8 | 17,8 |
| 20 | Cari maliyyə ilinin mənfəəti | 13 | 50,4 | 69,5 |
| 21 | Kapital öhdəlikləri | | - | - |
| 22 | Adi ehtiyatlar | | - | - |
| 23 | Əsas vəsaitlərin yenidən qiymətləndirilməsi | | - | - |
| 24 | Digər ehtiyatlar | | - | - |
| | **Kapitalın cəmi** | | **1351,1** | **1370,2** |
| | **Passivlərin cəmi** | | **1448,1** | **1530,1** |

**İdarə heyətinin sədri** **R.İ.Əliyev**

**Baş mühasib** **F.R.Məmmədova**

# «KREDİT SERVİS BOKT» MMC

## MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT

31 dekabr 2022-ci il tarixinə

(min manatla)

| № | Gəlir və xərclərin maddələri | Qeydlərə istinad | Cari dövr 2022-ci il | Əvvəlki dövr 2021-ci il |
|---|---|---|---|---|
| **1** | **Verilmiş kreditlərdən daxil olan gəlirlər, cəmi** | | **267,9** | **309,5** |
| | o cümlədə: | | | |
| a) | verilmiş kreditlər üzrə faiz gəlirləri | 10 | 267,9 | 309,5 |
| b) | Verilmiş kreditlər üzrə daxil olan komissiya haqqı | | - | - |
| **2** | **Maliyyə gəlirləri, cəmi** | | **28,0** | **47,3** |
| | o cümlədən: | | | |
| a) | investisiyalar üzrə maliyyə gəlirləri | | | - |
| b) | digər maliyyə gəlirləri | 10 | 28,0 | 47,3 |
| c) | xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsindən gəlirlər | | - | - |
| **3** | **Əməliyyat və maliyyə gəlirləri, cəmi** | | **295,9** | **356,8** |
| **4** | **Maliyyə xərcləri , cəmi** | | **(10,8)** | **(3,8)** |
| | o cümlədən: | | | |
| a) | vaxtı keçmiş kreditlər üzrə ehtiyata ayırmalar | 5 | (10,8) | (3,8) |
| b) | digər maliyyə xərcləri | | - | - |
| **5** | **İşçi heyətinə çəkilən xərclər, cəmi** | | **(150,8)** | **(169,3)** |
| | o cümlədən: | | | |
| a) | əmək haqqı və müavinətlər | 11,12 | (150,8) | (169,3) |
| **6** | **İnzibati xərclər, cəmi** | | **(71,1)** | **(96,6)** |
| | o cümlədən: | | | |
| a) | amortizasiya | 7,8 | (4,3) | (4,0) |
| b) | Icarə xərcləri | 11 | (50,7) | (53,0) |
| c) | digər xərclər | 11 | (16,1) | (39,6) |
| **7** | **Əməliyyat mənfəəti** | | **63,2** | **87,1** |
| **8** | **Qeyri əməliyyat gəlirləri** | | | |
| **9** | **Qeyri əməliyyat xərcləri** | | | |
| **10** | **Mənfəətdən vergi** | 14 | **12,8** | **17,6** |
| **11** | **Xalis mənfəət** | 13 | **50,4** | **69,5** |

**İdarə heyətinin sədri** **R.İ.Əliyev**

**Baş mühasib** **F.R.Məmmədova**

# «KREDİT SERVİS BOKT» MMC

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

31 dekabr 2022-ci il tarixinə

(min manatla)

| № | Maddələrin adı | Qeyd-lərə istinad | Cari dövr 2022-ci il | əvvəlki dövr 2021-ci il |
|---|---|---|---|---|
| | **Əməliyyat fəaliyyətindən yaranan pul vəsitlərinin hərəkəti** | | | |
| 1 | Maliyyə sektoruna verilmiş kreditlər və avanslar üzrə alınmış faiz gəlirləri | | - | - |
| 2 | Müştərilərə verilmiş kreditlər və avanslar üzrə alınmış faiz gəlirləri | 10 | 267,9 | 305,9 |
| 3 | İnvestisiyalı qiymətli kağızlar üzrə faiz gəlirləri | | - | - |
| 4 | Alınmış digər faiz gəlirləri | | - | - |
| 5 | Müştəri hesabları üzrə ödənilmiş faiz xərcləri | | - | - |
| 6 | İnvetisiyalı qiymətli kağızlar üzrə ödənilmiş faiz xərcləri | | - | - |
| 7 | Borc götürülmüş vəsaitlər üzrə ödənilmiş faiz xərcləri | | - | - |
| 8 | Ödənilmiş digər faiz xərcləri | | - | - |
| 9 | Alınmış komissiya haqqı | | - | - |
| 10 | Ödənilmiş komissiya xərcləri | | - | - |
| 11 | Alınmış digər əməliyyat gəlirləri | 10 | 28,0 | 47,3 |
| 12 | Ödənilmiş digər əməliyyat xərcləri | 11 | (217,6) | (261,9) |
| 13 | Alınmış dividendlər | | - | - |
| 14 | Ödənilmiş mənfəət vergisi | 13 | (12,8) | (21,4) |
| | **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl yaranan (istifadə olunan ) xalis pul vəsaitləri** | | **65,5** | **73,5** |
| | **Əməliyyat fəaliyyətində aktiv və öhdəliklər üzrə dəyişikliklər (artım/ azalma)** | | | |
| 1 | Yerləşdirilmiş məcburi ehtiyatlar üzrə | | | - |
| 2 | Maliyyə sektoruna verilmiş kreditlər və avanslar üzrə | | | - |
| 3 | Müştərilərə verilmiş kreditlər və avanslar üzrə | 5 | 281,9 | 99,00 |
| 4 | Dilinq əməliyyatları üçün nəzərdə tutulan investisiyalı qiymətli kağızlar üzrə | | | - |
| 5 | Satış üçün nəzərdə tutulan investisiyalı qiymətli kağızlar üzrə | | | |
| 6 | Digər əməliyyat aktivləri üzrə | 10 | 12,6 | 0,5 |
| 7 | Müştərilərdən götürülmüş əmanətlər üzrə | | | |
| 8 | Digər əməliyyat öhdəlikləri üzrə | 6 | (62,9) | (0,8) |
| | **Əməliyyat fəaliyyətindən yaranan (istifadə olunan) xalis pul vəsaitləri** | | **231,6** | **98,7** |
| | **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| 1 | Ödəmə müddətinin tamamlanmasına qədər saxlanılan investisiyalı qiymətli kağızların alınması üzrə ödənişlər | | - | - |
| 2 | Ödəmə müddətinin tamamlanmasına qədər saxlanılan investisiyalı qiymətli kağızların satışı üzrə daxilolmalar | | - | - |
| 3 | Assosiasiya olunmuş müəssisələrdə qoyulmuş investisiyalar | | - | - |
| 4 | Assosiasiya olunmuş müəssisələrdə qoyulmuş investisiyaların satışı üzrə daxilolmalar | | - | - |
| 5 | Törəmə cəmiyyətlərin alınması üzrə ödənişlər | | - | - |
| 6 | Törəmə cəmiyyətlərin satışı üzrə daxilolmalar | | - | - |
| 7 | Daşınmaz əmlaka investisiyalar | | - | - |

| | | | | |
|---|---|---|---|---|
| 8 | Daşınmaz əmlaka investisiyaların satışı üzrə daxilolmalar | | - | - |
| 9 | Qeyri- maddi aktivlərin alınması üzrə ödənişlər | | - | - |
| 10 | Qeyri-maddi aktivlərin satışı üzrə daxilolmalar | | - | - |
| 11 | Torpaq , tikili və avadanlıqların alınması üzrə ödənişlər | 7 | (7,6) | (4,8) |
| 12 | Torpaq , tikili və avadanlıqların satışı üzrə daxilolmalar | | - | |
| 13 | Bütün digər investisiya fəaliyyətləri üzrə daxilolmalar(ödənişlər) | | - | - |
| | **İnvestisiya fəaliyyətindən yaranan (istifadə olunan) xalis pul vəsaitləri** | | **(7,6)** | **(4,8)** |
| | **Maliyyə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | | |
| 1 | Səhmlərin və maliyyə alətlərinin buraxılması | | - | - |
| 2 | Xüsusi səhmlərin və analoji maliyyə alətlərinin yenidən alınması üzrə ödənişlər | | - | - |
| 3 | Borc qiymətli kağızların buraxılması | | - | - |
| 4 | Borc qiymətli kağızların geri alınması | | - | - |
| 5 | Götürülmüş borclar | | - | - |
| 6 | Götürülmüş borcların ödənilməsi | | - | - |
| 7 | Digər uzunmüddətli borclar | | - | - |
| 8 | Digər uzunmüddətli borcların ödənilməsi | | | |
| 9 | Dividendlərin ödənilməsi | 16 | (69,5) | (94,4) |
| 10 | Bütün digər maliyyə fəaliyyəti üzrə daxilolmalar (ödənişlər) | | - | - |
| | **Maliyyə fəaliyyətindən yaranan (istifadə olunan) xalis pul vəsaitləri** | | **(69,5)** | **(94,4)** |
| | **Pul və pul vəsaitlərinin ekvivalentlərinə valyuta məzənnəsinin dəyişməsinin təsiri** | | **-** | **-** |
| | **Pul və pul vəsaitlərinin ekvivalentləri üzrə xalis artım (azalma)** | | **220,0** | **(73,0)** |
| | **Hesabat dövrünün əvvəlində pul və pul vəsaitlərinin ekvivalentləri** | 4 | **236,4** | **163,4** |
| | **Hesabat dövrünün sonunda pul və pul vəsaitlərinin ekvivalentləri** | 4 | **456,4** | **236,4** |

**İdarə heyətinin sədri** **R.İ.Əliyev**

**Baş mühasib** **F.R.Məmmədova**

# «KREDİT SERVİS BOKT» MMC

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

31 dekabr 2022-ci il tarixinə

(min manatla)

| № | Göstəricilər | Qeyd-lərə istinad | Ödənilmiş nizamnamə kapitalı | Kapital ehtiyatları | | | | Bölüşdü-rülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Yenidən qiymətlən-dirmə üşrə ehtiyat | Qanun-vericilik üzrə ehtiyat | Mülkiyyət-çilərin kapital qoyuluşlar | Digər ehtiyatlar | | |
| 1 | 01 yanvar 2022-ci il tarixinə olan qalıq | 9 | 1282,9 | | | | | 87,3 | 1370,2 |
| 2 | Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | - | - | - | - | - | - | - |
| 3 | 01 yanvar 2022-ci il tarixinə düzəlişlərdən sonra olan qalıq | 9 | 1282,9 | | | | | 87,3 | 1370,2 |
| 4 | Aktivlərin yenidən qiymətləndirilməsi nəticəsində dəyərin artması | | - | - | - | - | - | - | - |
| 5 | Hesabat dövrünün xalis mənfəəti (zərəri) | | - | - | - | - | - | 50,4 | 50,4 |
| 6 | Mülkiyyətçilərin kapital qoyuluşları | | - | - | - | - | - | - | - |
| 7 | Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda tanınmamış gəlirlər və xərclər | | - | - | - | - | - | - | - |
| 8 | Dividendlər | 16 | - | - | - | - | - | (69,5) | (69,5) |
| 9 | Kapitalın maddələr arasında köçürülməsi | | - | - | - | - | - | - | - |
| 10 | 31 dekabr 2022-ci il taixinə olan qalıq | 9 | 1282,9 | | | | | 68,2 | 1351,1 |
| 11 | Hesabat dövrü üzrə kapitalda ümumi dəyişikliklər | | | | | | | | -19,1 |

**İdarə heyətinin sədri** **R.İ.Əliyev**

**Baş mühasib** **F.R.Məmmədova**

---

## *1.«Kredit Servis BOKT» Məhdud Məsuliyyətli Cəmiyyəti haqqında ümumi məlumat*

«Kredit Servis BOKT» Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra «Cəmiyyət») 24 yanvar 2011-ci il tarixdə Bakı şəhəri Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsində dövlət qeydiyyatına alınmış və Cəmiyyətə 24 yanvar 2011-ci il tarixdə Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında 1501720661 (VÖEN) saylı Şəhadətnamə verilmişdir.

Dövlət qeydiyyatına alınarkən Cəmiyyətin Nizamnamə kapitalının miqdarı 300,0 min manat olmuşdur.

Cəmiyyətin təsisçiləri Azərbaycan Respublikasının vətəndaşlarıdır və Nizamnamə kapitalının miqdarı 31 dekabr 2022-ci il tarixdə bitən dövrün sonuna 1282,9 min manat təşkil edir.

Cəmiyyətin əsas fəaliyyət növü- fəaliyyət kodu 64920 olan kreditin verilməsi fəaliyyətidir.

Cəmiyyətin fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növü olduğundan, Cəmiyyətə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən 15 aprel 2011-ci il tarixdə qeydiyyata alınmış «kreditlərin verilməsi üçün» BKT-3 saylı xüsusi razılıq (lisenziya) verilmişdir.

Bu lisenziyaya ilə Cəmiyyətə milli və xarici valyutada kreditlərin verilməsi, borc öhdəliklərinin alqı- satqısı (faktorinq, forfeytinq), lizinq, veksellərin uçotu, qarantiyaların verilməsi, sığorta agenti xidmətinin göstərilməsi, borcalanlara, o cümlədən, birgə borcalanlar qruplarına maliyyə, texniki və idarəetmə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsini həyata keçirmək hüququ və girov əmanətini qəbul etmək icazəsi verilmişdir.

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixi vəziyyətinə fəaliyyət göstərən 2 filialı vardır.

Cəmiyyətin hüquqi və faktiki ünvanı: AZ 1052, Bakı şəhəri, Nərimanov rayonu, Ə.Əliyev küçəsi , ev 26, məhəllə 1956-1989 ünvanıdır.

## *2.Təqdimatın əsasları*

Cəmiyyətin fəaliyyətinin 31 dekabr 2022-ci il tarixində bitən il dövrü üzrə tərtib edilmiş və aşağıdakı cədvəllərdə verilən maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun hazırlanmışdır.

Maliyyə hesabatları fasiləsiz fəaliyyət göstərməsi nəzərdə tutulmaqla və Azərbaycan Respublikası qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmışdır.

**2.Təqdimatın əsasları (davamı)**

***Uyğunluluq prinsipi***
***Funksional və hesabat valyutası***

Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur və bu yerli valyuta olan Azərbaycan Respublikasının manatıdır (manat və ya AZN), maliyyə hesabatlarında və onlara qeydlərdə göstərilən məbləğlər, digər qeydlər olmadıqda, Azərbaycan manatı ilə ifadə edilmişdir.

Cəmiyyətdə mühasibat uçotu MHBS-nın tələblərinə cavab verən və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparılır.

Maliyyə hesabatlarının hazırlanmasının məqsədi istifadəçilər tərəfindən iqtisadi qərarların qəbul edilməsi məqsədi ilə maliyyə vəziyyəti, maliyyə vəziyyətinin nəticələri və pul vəsaitlərinin hərəkəti haqqında dolğun və faydalı məlumatların təqdim edilməsidir. Cəmiyyət heç bir hüquqi və ya fiziki şəxsdən asılı deyil və Cəmiyyətin alı orqanı Təsisçilərin ümumi yığıncağıdır.

Maliyyə hesabatları aşağıda göstərilmiş mühasibat uçotu prinsiplərindən başqa cür (maliyyə alətləri ədalətli dəyər prinsi ilə ölçülür) qeyd olunmayıbsa tarixi dəyər prinsipi əsasında hazırlanmışdır.

Tətbiq olunan uçot siyasəti əvvəlki illərdə aparılmış uçot siyasətinə uyğundur.

Cəmiyyət fəaliyyətə 2011-ci ildə başlamışdır və maliyyə hesabatları davamlı fəaliyyətdə olan müəssisə prinsipi əsasında hazırlanmışdır və maliyyə hesabatlarındakı məlumatlar hesabat dövrünə görə müqayisəli göstərilmişdir.

**3.Mühasibat uçotu siyasətinin mühüm prinsipləri**

***Maliyyə alətlərinin tanınması və ölçülməsi***

Maliyyə alətlərinə maliyyə aktivləri və maliyyə öhdəlikləri aid edilir. Cəmiyyətinin maliyyə hesabatları (pul vəsaitlərinin hərəkəti haqqında hesabat istisna olmaqla) hesablama metoduna uyğun olaraq hazırlanmışdır.

***Verilmiş kreditlər üzrə faiz gəlirləri, komissiya haqqı və digər maliyyə gəlirləri***

Cəmiyyətdə verilmiş kreditlər üzrə faiz gəliri effektiv faiz metodundan istifadə etməklə hesablama metodu ilə uçota alınır və bu metoda əsasən gəlir xidmətlərin göstəridiyi dövrdə gəlir kimi tanınır. Bütün digər komissiya gəlirləri və digər gəlirlər faktiki göstərilmiş xidmətlərin haqqı kimi hesablama metodu ilə uçota alınır. Həmçinin, xərc maddələri də onların müvafiq yarandığı dövrlər üzrə uçota alınır.

## 3.Mühasibat uçotu siyasətinin mühüm prinsipləri (davamı)

### Effektiv faiz metodu

Effektiv faiz metodu –maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər xaric olmaqla) maliyyə alətinin xalis balans dəyərinə diskontlaşdırılan dəqiq dərəcədir.

### Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliyə məruz qalan maddələrdir.

Pul və onların ekvivalentlərnə nağd pul, banklardakı hesablarda qalıqda olan pul vəsaitləri, depozit və digər hesablar üzrə qalıqlar aiddir.

Pul vəsaitləri və onların ekvivalentlərinə ilkin ödəmə müddəti üç aydan az olan bütün depozitlər daxildir.

### Müştərilərə verilmiş kreditlər və kredit zərərləri üçün ehtiyatlar

Müştərilərə verilmiş kreditlər verildiyi zaman dəyəri və effektiv faiz metodu əsasında uçota alınır və vaxtı keçmiş kreditlər üzrə yaranan zərərlər üçün ehtiyatlar yaradılır.

Müştərilərə verilmiş kreditlər müəyyən edilmiş tarixlərdə qaytarılmaq şərti ilə Cəmiyyət tərəfindən müştərilərə pul verildiyi zaman uçota alınır. Müştərilərə verilmiş kreditlər maliyyə hesabatlarında ehtimal olunan kredit zərərləri üçün ehtiyyat çıxılmaqla və göstərilməklə xalis dəyərlə əks etdirilir. Ehtimal olunan zərərlərin olmasına obyektiv subutlar olduğu halda, həmin kredit üzrə zərərlər üçün ehtiyat yaradılır.

Cəmiyyətdə müntəzəm olaraq ödəmə vaxtı keçmiş kreditləri müəyyən etmək üçün kredit portfeli təhlil edilir.

Vaxtı keçmiş kredit üzrə zərərlər üçün ehtiyat məbləği sonradan baş verən hallara görə azalarsa, ehtiyatın azaldığı məbləğ Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda nəzərə alınır.

### Torpaq, tikili və avadanlıqlar, və qeyri- maddi aktivlər

Torpaq, tikili və avadanlıqlar və qeyri- maddi aktivlər yığılmış köhnəlmə çıxılmaqla qalıq dəyərlə tanınır.

---

**3.Mühasibat uçotu siyasətinin mühüm prinsipləri (davamı)**

Cəmiyyətin Torpaq, tikili və avadanlıqlardan ibarət aktivləri mebel və avadanlıqlardan, kompyüter avadanlıqlarından və nəqliyyat vasitələrindən ibarətdir.

Cəmiyyətin qeyri –maddi aktivlərinə proqram təminatları daxildir.

Torpaq, tikili və avadanlıqlar, və qeyri- maddi aktivlərə köhnəlmə düx xətt metodu ilə hesablanır, bu metoda əsasən amortizasiya norması sabit olaraq dəyişməz qalır və hesablanmış dəyişən köhnəlmə məbləği Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda nəzərə alınır.

***Digər aktivlər və digər öhdəliklər***

Qısamüddətli borc öhdəlikləri əməliyyat dövründə cəlb edilmiş və ya hesablanmış, lakin qaytarılmamış və ya ödənilməmiş, lakin, qısa müddətdə qaytarılmalı və ya ödənilməli kreditor borclarının məbləğini göstərir.

***Dividendlər***

Cəmiyyət tərəfindən dividendlərin elan edilməsi və ödənilməsi Azərbaycan Respublikasının qanunverici aktları əsasında həyata keçirilir.

***Vergilər***

Cəmiyyət mənfəət vergisinin tədiyyəçisidir və Cəmiyyətin maliyyə hesabatlarında əks etdirilən mənfəətdən vergi Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən müəyyənləşdirilir.

Maliyyə hesabatları ilə vergi hesabatları arasında mənfəət vergisinin məbləğində yarana bilən müvəqqəti fərqlər amortizasiya normalarının və hesablama metodlarının fərqli olması, vergi hesabatında gəlirdən çıxılılan xərclərin məhdudlaşdırılması, vergi hesabatlarının tərtib edilməsində gəlirlərin və xərclərin (hesablanmış faiz gəlirləri və xərclər, kreditlər üzrə zərərlər üçün ehtiyatların yaradılması) hesablama və ya kassa metodunun tətbiq edilməsi səbəblərindən baş verir.

Mənfəət vergisi cari və təxirə salınmış vergini əhatə edir. Cari vergi hesabat dövründə əldə edilmiş və vergisinə cəlb olunan mənfəətə görə ödənilməsi nəzərdə tutulan vergidir.

Təxirə salınmış vergi Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda göstərilən mənfəət məbləği ilə vergi məqsədləri üçün istifadə edilən məbləğlər arasındakı müvəqqəti fərqləri göstərir.

Cəmiyyət əmlak vergisi ödəyicisidir və bu vergilər əməliyyat xərcləri kimi Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabata daxil edilir.

Bundan əlavə, Cəmiyyət muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin tədiyyəçisidir.

---

## *3.Mühasibat uçotu siyasətinin mühüm prinsipləri (davamı)*

### *Kapital və kapital ehtiyatları*

Kapital maliyyə hesabatlarında ilkin dəyərdə tanınır.

### *Xarici valyutanın konvertasiyası və məzənnə fərqi*

Xarici valyutada müəyyən edilmiş pul, aktiv və öhdəlikləri balans tarixindəki məzənnəyə uyğun Azərbaycan manatına konvertasiya edilir.

Xarici valyuta ilə aparılan əməliyyatlar, əməliyyatların yerinə yetirldiyi tarixdə quvvədə olan valyuta məzənnəsi ilə hesablanır.

Bu əməliyyatlardan yaranan gəlir və ya zərər məzənnə əməliyyatları üzrə gəlirə və ya gəlirdən çıxılmalara daxil edilir.

### *İşçi heyəti üzrə xərclər və sosial sığorta ayırmaları*

Kreditlərin verilməsi xidmətləri ilə bağlı idarə heyətinə və inzibati xərclər aid olduğu dövrlər üzrə hesablama metodu ilə uçota alınır və əməliyyatın keçirildiyi dövrdə xərc kimi tanınır.

İşçilərə hesablanan əmək haqqı və ona bərabər tutulan ödənişlər Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda aid olduğu dövrlər üzrə əməliyyat xərclərinə aid edilir.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, 1 işçiyə hesablanan muzdlu işlə əlaqədar əmək haqqı və əmək haqqına bərabər tutulan ödənişlərin məbləği 200 manata kimi olan hissəsindən 3% və 200 manatdan yüksək olan məbləğindən isə 10 % sosial sığortaya ayırmaları tutulur. Bundan əlavə, hesablanan əmək haqqından və əmək haqqına bərabər tutulan ödənişlərdən 0,5 % işsizlikdən sığorta haqqı tutulur.

Həmçinin, 1 işçiyə hesablanan əmək haqqı və ona bərabər tutulan ödənişlər fonduna görə, hesablanan məbləğin 200 manata kimi olan hissəsinə görə 22 % və 200 manatdan yüksək olan hissəsinə görə isə 15 % sosial sığortaya ayırmalar hesablanır və bu ayırmalar Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda əməliyyat xərclərinə aid edilir.

İcbari tibbi sığorta haqqı hesablanan əmək haqqından və ona bərabər tutlan ödənişlədən 2 % tutulur və əmək haqqı fondundan 2 % hesablanır .

### *Əlaqəli tərəflərlə əməliyyatların uçotu*

Cəmiyyət fəaliyyəti zamanı əlaqəli tərəflərlə əməliyyatlar apara bilər, lakin, həmin əməliyyatların bazar faiz dərəcələrində həyata keçirmək üçün müəyyən fəal bazar dərəcələri mövcud olmadıqda peşəkar mülahizələrə əsaslanılır.

---

## *4.Pul vəsaitləri və onların ekvivalentləri*

Cəmiyyətin nağd və banklardakı hesablarda olan pul vəsaitlərinin qalıqları barədə 31 dekabr 2022-ci il tarixinə məlumatların açıqlanması aşağıdakı kimidir

| № | Göstəricilər | 2022-ci il dövrü min manat | 2021-ci il dövrü min manat |
|---|---|---|---|
| 1 | Kassada olan nağd pul vəsaitləri | 426,0 | 200,6 |
| 2 | Cari hesablarda olan qalıqlar | 30,4 | 35,8 |
| | Cəmi pul vəsaitləri və onların ekvivalentləri | 456,4 | 236,4 |

Cədvəldən göründüyü kimi, 31 dekabr 2022-ci il tarixi vəziyyətinə nağd və banklardakı hesablarda olan pul vəsaitləri 456,4 min manat təşkil edir .

Nağd pul vəsaitlərinin 31 dekabr 2022--ci il tarixi vəziyyətinə valyuta növləri üzrə açıqlaması aşağıdakı kimidir:

| № | Valyuta növləri | AZN | ABŞ dolları | |
|---|---|---|---|---|
| | | | ABŞ dolların ilə | Manat ekvivalentin də |
| 1 | Azərbaycan manatı | 356,5 | 0 | 356,5 |
| 2 | ABŞ dolları ilə | 99,9 | 58,8 | 99,9 |
| | Cəmi | 456,4 | 58,2 | 456,4 |

Cəmiyyətin «Kapitalbank» ASC-nin Nərimanov filialındakı cari manat və ABŞ dolları, «Əmrahbank» ASC-də cari manat və ABŞ dolları, və «Azərpoçtbank» ASC-də cari manat, «Rabitəbank» ASC-də cari manat, "Ziraatbank" ASC-də cari manat və "Expressbank" ASC-də cari manat hesabları vardır.

Cari hesablarda pul vəsaitlərinin 31 dekabr 2022-ci il tarixə qalığı bütün valyuta növləri üzrə 30,4 min manat təşkil edir

## *5.Müştərilərə verilmiş kreditlər*

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixi vəziyyətinə kredit portfelinin kateqoriyalar üzrə bölgüsü barədə məlumatların açıqlanması aşağıdakı kimidir:

| № | Göstəricilər | 31.12.22-ci il tarixə min manat | 31.12.21-ci il tarixə min manat |
|---|---|---|---|
| 1 | İstehlak məqsədlərinə | 918,6 | 1209,4 |
| 2 | Digər məqsədlərə | 67,3 | 76,4 |
| 3 | Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | (29,3) | (47,3) |
| | Cəmi kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat çıxılmaqla | 956,6 | 1238,5 |

*«Kredit Servis BOKT» Məhdud Məsuliyyətli Cəmiyyətinin 31 dekabr 2022-ci il tarixdə bitən il üzrə maliyyə hesabatlarına qeydlər (min manatla)*

---

## *5.Müştərilərə verilmiş kreditlər (davamı)*

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixi vəziyyətinə kredit portfelinin iqtisadi sahələr üzrə təhlili barədə məlumatların açıqlanması aşağıdakı kimidir:

| № | Göstəricilər | 31.12.22-ci il tarixə min manat | 31.12.21-ci il tarixə min manat |
|---|---|---|---|
| 1 | Hüquqi şəxslər üzrə | 67,3 | 76,4 |
| 2 | Fiziki şəxslər üzrə | | |
| | O cümlədən: | 918,6 | 1209,4 |
| | -Şəxsi istehlak məqsədlərinə | 918,6 | 471,4 |
| | Cəmi verilmiş kreditlər | 985,9 | 1285,8 |

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixi vəziyyətinə kredit portfelinin keyfiyyətinə görə təhlili barədə məlumatların açıqlanması aşağıdakı kimidir:

| № | Göstəricilər | 31.12.22-ci il tarixə cəmi, min manat | Kreditlərin dəyərsiz-ləşməsi üzrə ehtiyat, min manat | Cəmi dəyərsiz-ləşmə üzrə ehtiyat çıxılmaqla, min manat |
|---|---|---|---|---|
| 1 | Hüquqi şəxslər üzrə | 67,3 | 0 | 67,3 |
| 2 | Fiziki şəxslər üzrə | 918,6 | 29,3 | 889,3 |
| | Cəmi verilmiş kreditlər | 985,9 | 29,3 | 956,6 |

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixi vəziyyətinə kredit portfelinin ödəniş müddətlərinə görə açıqlanması aşağıdakı kimidir:

| № | Göstəricilər | 31.12.22-ci il tarixə cəmi, min manat | 31.12.21-ci il tarixə cəmi, min manat |
|---|---|---|---|
| 1 | Cəmi verilmiş kreditlər | 985,8 | 1285,8 |
| 2 | Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | (29,3) | (47,3) |
| 3 | Cəmi kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat çıxılmaqla, cəmi, o cümlədən: | 956,6 | 1238,5 |
| 4 | Müştərilərə verilmiş uzunmüddətli kreditlər | 724,1 | 984,4 |
| 5 | Müştərilərə verilmiş qısamüddətli kreditlər | 232,5 | 254,1 |

---

## 5.Müştərilərə verilmiş kreditlər (davamı)

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixi vəziyyətinə kredit portfelinin valyuta növlərinə görə açıqlanması aşağıdakı kimidir:

| № | Göstəricilər | 31.12.22-ci il tarixə cəmi, min manat | 31.12.21-ci il tarixə cəmi, min manat |
|---|---|---|---|
| 1 | Azərbaycan manatı ilə müştərilərə verilmiş kreditlər | 980,4 | 1279,3 |
| 2 | ABŞ dolları ilə müştərilərə verilmiş kreditlər | 5,5 | 6,5 |
| 3 | Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | (29,3) | (47,3) |
| | Cəmi kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat çıxılmaqla | 956,6 | 1238,5 |

Cəmiyyətdə 31 dekabr 2022-ci il tarixi vəziyyətinə müştərilərə verilmiş kreditlərin xalis dəyəri 956,6 min manat olmuşdur.

Cəmiyyətin kredit siyasətinə müvafiq olaraq kreditlərin faiz dərəcələri ortalama hesabı ilə minimum 8 faiz və maksimum əsasən 30 faiz və kreditin müddəti - 12 aydan 60 ayadək, kreditin təminatı üçün qəbul edilmiş ğirov- zaminlik, qiymətli metallardan əşyalar, daşınmaz əmlak və sairədən idarət olmuşdur.

Cəmiyyət tərəfindən donorlardan vəsaitlər cəlb edilməmiş, təşkilatlardan maliyyə qrantları alınmamış və digər təşkilatlardan kredit cəlb edilməmişdir.

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında» 28 fevral 2019-cu il tarixli 551 nömrəli Fərmanına və Maliyyə Bazarlarına Nəzarət Palatasının 27 mart 2019-cu il tarixli 1951100019 nömrəli qərarı ilə təsdiq edilmiş «Fiziki şəxslərin xarici valyutada olan kreditlərinin əsas məbləğlərinin devalvasiya nəticəsində manatla artmış hissəsinin ödənilməsi mexanizminin və həmin məbləğə hesablanmış faiz və dəbbə pulu (cərimə, peniya) üzrə tətbiq ediləcək güzəştlərin müəyyən edilməsi Qaydası»na müvafiq olaraq 147,1 min manat məbləğində vaxtı keçmiş kreditlər restrukturizasiya edilmişdir.

Bu məqsədlə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən fiziki şəxslərin xarici valyutada olan kreditlərinin əsas məbləğlərinin devalvasiya nəticəsində manatla artmış hissəsinin ödənilməsi üçün 42,9 min manat və vaxtı keçmiş kreditlərin restrukturizasiya üçün 131,8 min manat məbləğinə pul vəsaiti ayrılmışdır.

Ayrılmış 131,8 min manat vəsaitin 65,8 min manat hissəsi qaytarılmışdır.

### 6. Digər aktivlər və digər öhdəliklər

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixi vəziyyətinə digər aktivləri və digər öhdəlikləri üzrə məlumatların açıqlanması aşağıdakı kimidir:

| № | Göstəricilər | 31.12.22 -ci il tarixə cəmi, min manat | 31.12.21-ci il tarixə cəmi, min manat | Artım «+», azalma «-» |
|---|---|---|---|---|
| 1 | Digər aktivlər | 1,9 | 11,1 | -9,2 |
| 2 | Digər öhdəliklər | 31,0 | 61,1 | +30,1 |

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixi vəziyyətinə digər aktivləri 1,9 min manat və digər öhdəliklər isə 31,0 min manat təşkil edir.

### 7.Torpaq, tikili və avadanlıqlar

Cəmiyyətin Torpaq, tikili və avadanlıqları barədə 31 dekabr 2022-ci il tarixi vəziyyətinə məlumatların açıqlanması aşağıdakı kimidir:

(min manat)

| № | Göstəricilər | Mebel və avadanlıq | Kompüter və rabitə avadanlığı | Nəqliyyat vasitələri | Cəmi |
|---|---|---|---|---|---|
| 1 | 31.12.2021-ci il tarixinə | | | | |
| | -ilkin dəyəri | 17,5 | 17,2 | 35,9 | 70,6 |
| 2 | Hesabat dövründə mədaxil edilib | 1,7 | 5,9 | 0 | 7,6 |
| 3 | Hesablanmış köhnəlmə | (15,6) | (17,6) | (32,4) | (65,6) |
| | -o cümlədən: | | | | |
| | 31.12.2022-ci il tarixdə bitən dövr üzrə | (1,0) | (1,6) | (1,1) | (3,7) |
| 4 | Balans dəyəri | 3,6 | 5,5 | 3,5 | 12,6 |

Cəmiyyətin Torpaq, tikili və avadanlıqlarına 31 dekabr 2022-ci il tarixə kimi dövrdə cəmi hesablanmış 65,6 min manat köhnəlmənin 3,7 min manat məbləğində hissəsi 31 dekabr 2022-ci il tarixdə bitən il dövr üzrə hesablanmışdır və 31 dekabr 2022-ci il tarixi vəziyyətinə Torpaq, tikili və avadanlıqların balans dəyəri 12,6 min manat təşkil edir və hesablanmış köhnəlmə məbləği Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabata daxil edilmişdir.

## *8.Qeyri- maddi aktivlər*

Cəmiyyətin qeyri- maddi aktivləri barədə 31 dekabr 2022-ci il tarixinə məlumatların açıqlanması aşağıdakı kimidir :

| № | Göstəricilər | Cəmi, min manat |
|---|---|---|
| 1 | 31 dekabr 2021-ci il tarixinə balans dəyəri | 14,6 |
| 2 | Daxil olmuşdur | 0 |
| 3 | Köhnəlmə hesablanıb, cəmi | (8,9) |
| | -o cümlədən, hesabat dövründə | (0,6) |
| 4 | 31 dekabr 2022-ci il tarixinə balans dəyəri | 5,7 |

Cəmiyyətin qeyri- maddi aktivləri proqram təminatından ibarətdir və 31 dekabr 2022-ci il tarixdə bitən dövrdə qeyri-maddi aktivlərə 0,6 min manat köhnəlmə hesablanmışdır və hesablanmış köhnəlmə məbləği Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabata daxil edilmişdir.

Cəmiyyətdə 11 noyabr 2022-ci il tarixli 28 nömrəli «Aktivlərin və öhdəliklərin inventarizasiyasının aparlması haqqında» əmrin tələblərinə müvafiq olaraq aktivlərin və öhdəliklərin inventarizasiya aparılmış və 12 dekabr 2022-ci il tarixdə yekun İnvertarizasiya aktı tərtib edilmişdir.

Aparılmış inventarizasiya nəticəsində mühasibat uçot göstəriciləri ilə faktiki göstəricilər arasında kənarlaşma aşkar edilməmişdir.

## *9.Nizamnamə kapitalı və kapital ehtiyatları*

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixə Nizamnamə kapitalı 1282,9 min manat təşkil edir.

Cəmiyyətin kapitalının miqdarı 31 dekabr 2022-ci il tarixə 1351,1 min manat olmuşdur, o cümlədən Nizamanamə kapitalı 1282,9 min manat və əvvəlki illərin və hesabat dövrünün bölüşdürülməmiş mənfəəti 68,2 min manat təşkil edir.

## *10.Verilmiş kreditlər üzrə faiz gəlirləri, komissiya haqqı və digər maliyyə gəlirləri*

Cəmiyyətdə 31 dekabr 2022-ci il tarixdə bitən ildə verilmiş kreditlər üzrə faiz gəlirləri, daxil olan komissiya haqqı və digər maliyyə gəlirlərinin təsnifatı aşağıdakı cədvəldə açıqlanmışdır:

| № | Göstəricilər | 2022-ci il, min manat | 2021-ci il, min manat |
|---|---|---|---|
| 1 | Verilmiş kreditlər üzrə faiz gəlirləri | 267,9 | 309,5 |
| 2 | Verilmiş kreditlər üzrə komissiya haqqı | | 0 |
| | **Cəmi** | **267,9** | **309,5** |
| 3 | Digər maliyyə gəlirləri | 28,0 | 47,3 |
| 4 | Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsindən gəlirlər | | 0 |
| | **Cəmi** | **28,0** | **47,3** |
| | Yekunu | 295,9 | 356,8 |

Cəmiyyətin verilmiş verilmiş kreditlər üzrə faiz gəlirləri, daxil olan komissiya haqqı və digər maliyyə gəlirləri 295,9 min manat olmuşdur.

## *11.Əməliyyat və maliyyə xərcləri*

Cəmiyyətin fəaliyyətinin 31 dekabr 2022-ci il tarixdə bitən dövründə əməliyyat və maliyyə xərcləri barədə məlumatlar aşağıdakı cədvəldə açıqlanmışdır:

| № | Göstəricilər | 2022-ci il, min manat | 2021-ci il, min manat |
|---|---|---|---|
| 1 | İdarə heyətinə çəkilən xərclər, o cümlədən: | 150,8 | 169,3 |
| | -əmək haqqı | 150,8 | 169,3 |
| 2 | İnzibati xərclər, o cümlədən: | 71,1 | 96,6 |
| | -amortizaziya | 4,3 | 4,0 |
| | -icarə xərcləri | 50,7 | 53,0 |
| | -digər xərclər | 16,1 | 39,6 |
| 3 | Maliyyə xərcləri, o cümlədən | 10,8 | 3,8 |
| | - kredit üzrə zərərlər üçün yaradılmış ehtiyat | 10,8 | 3,8 |
| | -digər maliyyə xərcləri | 0 | 0 |
| | Cəmi | 232,7 | 269,7 |

---

### *11.Əməliyyat və maliyyə xərcləri (davamı)*

Əvvəlki hesabat dövrlərində kredit üzrə zərərlər üçün yaradılmış ehtiyat 18,5 min manat, cari dövrdə isə 10,8 min manat təşkil edir və bu göstərici Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda nəzərə alınmışdır.

Əməliyyat və maliyyə xərcləri 232,7 min manat, o cümlədən, xərclərin 150,8 min manat hissəsini əmək haqqı, o cümlədən, əmək haqqı və ona bərabər tutulan ödənişlər 126,1 min manat, hesablanmış sosial sığorta, işsizlikdən sığorta ayırmaları və icbari tibbi sığortaya ayırmalar 24,7 min manat, xərclərin 4,3 min manat hissəsini amortizasiya ayırmaları , o cümlədən Torpaq, tikili və avadanlıqlar üzrə 3,7 min manat və qeyri- maddi aktivlər üzrə 0,6 min manat, icarə xərcləri 50,7 min manat və digər xərclər 16,1 min manat təşkil edir.

### *12. İşçi heyəti üzrə xərclər və sosial sığorta ayırmaları*

Cəmiyyətin fəaliyyətinin 31 dekabr 2022-ci il tarixin də bitən dövründə işçilərə hesablanmış əmək haqqı və ona bərabər tutulan ödənişlər 126,1 min manat olmuş, hesablanmış məcburi sosial sığolrta ayırmaları, işsizlikdən sığortaya ayırmalar və icbari tibbi sığortaya ayırmalar cəmi 24,7 min olmuşdur və Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabata daxil edilmişdir.

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə işçilərinin sayı 11 nəfər olmuşdur.

### *13.Mənfəət*

Cəmiyyətin fəaliyyətinin 31 dekabr 2022-ci il tarixdə bitən il üzrə mənfəəti aşağıdakı cədvəldə açıqlanmışdır:

(min manat)

| № | Göstəricilər | 2022-ci il | 2021-ci il |
|---|---|---|---|
| 1 | Faiz, komssiya haqqları və digər maliyyə gəlirləri | 295,9 | 356,8 |
| 2 | Əməliyyat və digər maliyyə xərcləri | 232,7 | 269,7 |
| 3 | Mənfəət | 63,2 | 87,1 |
| 4 | Mənfəət vergisi | 12,8 | 17,6 |
| | Xalis mənfəət | 50,4 | 69,5 |

Cəmiyyətin 31 dekabr 2022-ci il tarixdə bitən il üzrə balans mənfəəti 63,2 min manat, Vergi Məcəllesinin 105-ci «Vergi dərəcələri» maddəsinə əsasən mənfəət vergisi bəyannaməsi üzrə mənfəətdən 20 dərəcə ilə hesablanmış mənfəət vergisi 12,8 min manat və xalis mənfəət isə 50,4 min manat olmuşdur.

## *14.Vergilər*

Cəmiyyətin fəaliyyətinin 31 dekabr 2022-ci il tarixdə bitən dövr üzrə vergi hesabatı olan Mənfəət vergisinin bəyannaməsi - Azərbaycan Respublikasının Vergi Məcəlləsinin tələblərinə müvafiq olaraq tərtib edilmiş, maliyyə hesabatları isə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına əsasən hazırlanmışdır.

Mənfəət vergisinin bəyannaməsi ilə Maliyyə Hesabatları arasında gəlirlərin və xərclərin tanınmasında fərqlər ola bilər ki, bu da Vergi Məcəlləsinə əsasən bəzi xərclərin gəlirdən çıxılan xərclərə aid edilmədiyindən və ya məhdudlaşdırıldığından, o cümlədən, əsas vəsaitlərin təmirinə çəkilmiş xərclərin məhdudlaşdırılması, amortizasiya ayrmalarının hesablanması bazasının müəyyən edilməsi və digər gəlirlər və xərclər arasında müəyyən və ya müvəqqəti fərqlər yarana bilər.

Vergi Məcəlləsinin tələblərinə əsasən tərtib edilmiş Mənfəət vergisinin bəyannaməsi üzrə 31 dekabr 2022-ci il tarixdə bitən dövrdə Cəmiyyətin gəlirləri 306,7 min manat və gəlirdən çıxılan xərclər isə 242,5 min manat və vergiyə cəlb olunan mənfəət 64,2 min manat olmuş, Vergi Məcəlləsinin 105-ci «Verginin dərəcələri» maddəsinin tələblərinə müvafiq olaraq 20 faiz dərəcə ilə 12,8 min manat mənfəətdən vergi hesablanmışdır.

Cəmiyyətin fəaliyyətinin 31 dekabr 2022-ci il tarixdə bitən il üzrə büdcəyə mənfəət vergisinin və əmlak vergisinin hesablanması barədə məlumatlar aşağıdakı cədvəldə göstərilmişdir:

| № | Göstəricilər | 2022-ci il min manat | 2021-ci il min manat |
|---|---|---|---|
| 1 | Mənfəət vergisi | 12,8 | 17,6 |
| 2 | Əmlak vergisi | 0 | 0 |
| | Cəmi | 12,8 | 17,6 |

Cəmiyyətin fəaliyyətinin 31 dekabr 2022-ci il tarixdə bitən dövründə işçilərə 126,1 min manat əmək haqqı və ona bərabər tutulan ödənişlər hesablanmışdır.

Cəmiyyət muzdlu işlə əlaqədan ödəmə mənbəyində tutulan verginin tədiyyəçisidir. Azərbaycan Respublikasının 30 noyabr 2018-ci il tarixli Qanunu ilə Vergi Məcəlləsinin 101-ci «Gəlir vergisinin dərəcəsi» maddəsinə dəyişiklik edilmiş və dəyişlikliyə əsasən neft –qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərinin məbləği 8000 manatadək olduqda, 2019-cu il yanvarın 1-dən 7 il müddətində vergi tutulmur.

---

## 14. *Vergilər (davamı)*

Daşınmaz əmlakın icarəsi üzrə xərclər 50,7 min manat olmuşdur, bu icarə haqqının 48.0 min manat hissəsi fiziki şəxs üzrə və 2.7 min manat hissəsi isə hüquqi şəxs üzrə hesablanmışdır. Vergi Məcəlləsinin 124-cü «Ödəmə mənbəyində icarə haqlarından və royaltidən vergi tutulması» maddəsinin tətəblərinə müvafiq olaraq fiziki şəxsə ödənilmiş 50,7 min manat icarə haqqından 14 faiz dərəcə ilə 6,7 min manat ödəmə mənbəyində vergi tutulmuş və büdcəyə köçürülmüşdür.

Cəmiyyətin təsisçilərinin 13 aprel 2022-ci il tarixində keçirilən ümumi yığıncağında əvvəlki hesabat dövrünün bölüşdürülməmiş mənfəəti hesabına təsisçilərə 66,5 min manat dividendin hesablanması və 3.0 min manatın isə istifadə üçün Cəmiyyətin "Abdulabad" filialınan kollektivinin sərəncamına ayrılması qərara alınmışdır. Təsisçilərə hesablanmış dividenddən Vergi məcəlləsinin 122 –ci «Ödəmə mənbəyində dividenddən vergi tutulması» maddəsinə əsasən 6,6 min manat məbləğində ödəmə mənbəyində vergi tutularaq büdcəyə köçürülmüşdür.

## *15.Xarici valyutanın konvertasiyası və məzənnə fərqi*

Hesabat dövründə xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsindən olan mənfəət və ya zərər olmamışdır.

## *16.Dividendlər*

Cəmiyyətin Təsisçilərinin 13 aprel 2022-ci il tarixdə keçirilmiş Ümumi yığıncağının qərarına əsasən əvvəlki illərin bölüşdürülməmiş mənfəətinin 66,5 min manat hissəsi hesabına təsisçilərə dividend hesablanmışdır və onların Nizamnamə kapitalındakı payların nisbətinə müvafiq olaraq, onlar arasında bölüşdürülmüşdür.

## *17 .Risklərin idarə olunması*

Cəmiyyət daxilində maliyyə (kredit, bazar, xarici valyuta, likvidlik və faiz dərəcəsi), əməliyyat və hüquqi risklərin idarə edilməsi həyata keçirilir. Cəmiyyətdə risklərin idarə olunmasında əsas məqsəd risklərin nəzarətdə saxlanılması və idarə olunmasıdır.

Maliyyə riklərinin idarə edilməsində əsas məqsəd risk limitlərinin müəyyən edilməsi və bu limitlərə əməl edilməsidir.

*«Kredit Servis BOKT» Məhdud Məsuliyyətli Cəmiyyətinin*
*31 dekabr 2022-ci il tarixdə bitən il üzrə maliyyə hesabatlarına qeydlər (min manatla)*

---

## 17 .Risklərin idarə olunması (davamı)

Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan təlimat və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

Kredit riski, ödəmə müddətləri başa çatmış kreditlərin tam ödənilə bilinməməsi halında yaranır. Odur ki, bu cür risklərə müntəzəm nəzarət olunur və bu risklər vaxtaşırı təhlil edilir.

Bazar riski, bazarda valyuta və faiz dərəcəsindəki dəyişmələrdən yaranır. Cəmiyyətdə bazar riskinin təsirinə nəzarət edilir.

Xarici valyuta riski, Azərbaycan manatına qarşı xarici valyuta məzənnəsində baş verən dəyişikliklərin maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə yaranır və Cəmiyyətdə xarici valyuta riski nəzarətdə saxlanılır.

Likvidlik riski, aktiv və passivlərin ödəmə tarixləri uzlaşmadığı hallarda ortaya çıxan riskdir. Cəmiyyətdə likvidlik riskinə nəzarət edilr və idarə olunur.

Faiz dərəcəsi riski, bazarda faiz dərəcələrinin dəyişməsinin Cəmiyyətin maliyyə vəziyyətinə və pul vəsaitlərinin hərəkətinə təsiri ilə yaranır.

Cəmiyyətdə bazarda faiz dərəcəsinin dəyişməsindən yarana bilən risklərə nəzarət edilir.

## *18. Əlaqəli tərəflərlə əməliyyatlar*

Tərəflər o zaman əlaqəli hesab olunur ki, onlar eyni qrupun nəzarəti altında olsun və ya tərəfərdən biri digərinə nəzarət edə bilsin və ya digər tərəfə maliyyə, yaxud əməliyyat qərarları qəbul edərkən mühüm təsir göstərə bilsin.

Cəmiyyətdə əlaqəli tərəflər arasında aparlmış əməliyyatların hüquqi formasına deyil məzmununa diqqət yetirlir.

## *19.Maliyyə nəticələri*

Cəmiyyətin fəaliyyətinin 31 dekabr 2022-ci il tarixdə bitən dövründə əldə etdiyi balans mənfəəti 63,2 min manat, büdcəyə hesablanmış mənfəət vergisi 12,8 min manat və xalis mənfəəti 50,4 min manat təşkil edir.

## *20.Hesabat dövründən sonrakı hadisələr*

Cəmiyyətdə hesabat dövründən sonra əhəmiyyətli hadisə baş verməmişdir.

***«Kredit Servis BOKT» MMC-nin İdarə heyətinin sədri*** ***R.İ.Əliyev***

***Baş mühasib*** ***F.R.Məmmədova***